AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASI
HÜQUQ ÜZRƏ FƏLSƏFƏ DOKTORU
FƏXRİ HÜQUQ DOKTORU
FƏRDİ QAYDADA FƏALİYYƏT GÖSTƏRƏN
**VƏKİL KAMANDAR RƏFİ OĞLU NƏSİBOV**
**Bakı şəh. Xaqani küç. 90C (Keçmiş 44), Tel: (012)498-23-78, mob: (050;055;070)221-47-74, Fax: (012)598-34-96,**
**e-mail: adv.kamandar@ymail.com**

---

«17» 04 2020-ci il №39/M

**Hurriyyet.org saytının Baş redaktoru**
**Cənab Vüqar Məmmədova**

**Hörmətli Vüqar müəllim.**

Nəzərinizə çatdırmaq istəyirəm ki, vəkil kimi Əlizadə Anar Nüsrət oğluna hüquqi xidmət göstərirərm. Qeyd etmək istərdim ki, baş redaktoru olduğunuz hurriyyet.org saytında 16 aprel 2020-ci il tarixində "***Britaniyada "bizi deyirlər": Qızlarla kef çəkmək üçün özəl təyyarə ilə Fransaya uçan oliqarxlar kimlərdir?***" adlı məqalədə, aprelin 11-də Britaniya qəzetləri bir qrup varlının gənc qızlarla kef çəkmək üçün karantin rejiminin hökm sürdüyü, koronavirusdan hər gün yüzlərlə adamın öldüyü Fransaya uçmasından yazıb başlığı ilə, heç bir dəqiqləşdirmə aparmadan, hüquqlarını müdafiə etdiyim şəxsin fikri öyrənilmədən, onun şərəf-ləyaqətini, işgüzar nüfuzunu ləkələyən ifadələr işlətməklə guya onun digər şəxslərlə birlikdə Londondan özəl təyyarədə Fransanın Marsel şəhərinə, oradan isə vertolyotlarla kurort şəhəri Kanndakı dəbdəbəli villaya uçmaq istədiyi qeyd olunub. Həmin məqalədə həmçinin hüquqlarını müdafiə etdiyim şəxsin Azərbaycandakı neft mafiasının qara kassası sayılması, onun öz kefinə görə milyonları kağız parçası kimi xərcləməsi kimi həqiqətə uyğun olmayan ifadələr işlədilmişdir. Müdafiəçisi olduğum şəxs Anar.Ə adlı kimi qeyd olunsa da məqalədə onun şəkli yerləşdirilmişdir.

Həmin məqalədə, ovqat.com saytına istinad edilməsi və mənbə kimi http://europanews-ch.over-blog.com/2020/04/karantin-vaxti-g-nc-qizlarla-kef-c-km-k-ucun-oz-l-t-yyar-il-fransaya-ucan-oliqarxlarin-kimliyi-b-lli-oldu-anar-lizad.html qeyd olunsa da həmin linkə daxil olduqda hazırkı məqalə açılmır. Həmçinin baş redaktoru olduğunuz saytda məlumat verilərkən onun həqiqətə uyğun olub-olmaması ümumiyyətlə araşdırılmamışdır.

Bununla bağlı qeyd etmək istərdik ki, həmin məqalədə Əlizadə Anar Nüsrət oğlu barəsində qeyd olunan məlumatlar həqiqətə uyğun deyildir. Belə ki, o qeyd olunduğu kimi 2020-ci ilin aprel ayında nə Böyük Britaniyanın London, nə də Fransanın Marsel və Kan şəhərlərində olmamışdır. Belə ki, Anar Əlizadə 14 mart 2020-ci il tarixində Türkiyə Cumhuriyyətinin İstanbul şəhərinə getmişdir. Sonradan bütün dünyanı bürüyən Koronavirus pandemiyasının yayılması və səfərlərin ləğv edilməsi səbəbindən oradan Bakıya qayıda bilməmiş və hazırda da İstanbul şəhərindədir. Bu isə asanlıqla pasportda mövcud olan giriş və çıxış möhürləri və müvafiq dövlət orqanlarına sorğu əsasında yoxlanıla bilər.

Bundan əlavə, artıq dünyanın aparıcı KİV-ri bu hadisə haqqında məlumatlar dərc olunur və orada digər ölkələrin vətəndaşları haqqında məlumatlar qeyd olunur, və ümumiyyətlə Azərbaycanlıların adı belə çəkilmir. Belə bir halda Sizin Anar Əlizadə haqqında yazdıqlarınız yalnız qərəzli və müəyyən sifariş xarakterli məqsədlər daşıdığını nümayiş edir.

Göründüyü kimi, ***"Britaniyada "bizi deyirlər": Qızlarla kef çəkmək üçün özəl təyyarə ilə Fransaya uçan oliqarxlar kimlərdir?***" adlı məqalədə, aprelin 11-də Britaniya qəzetləri bir qrup varlının gənc qızlarla kef çəkmək üçün karantin rejiminin hökm sürdüyü, koronavirusdan hər gün yüzlərlə adamın öldüyü Fransaya uçmasından yazıb başlığı ilə Anar Əlizadə nəzərdə tutularaq onun barəsində qeyd olunanlar həqiqətə uyğun deyil. Belə olan halda hesab edirik ki, həmin məqalədə Anar Əlizadə haqqında işlədilmiş ifadələr təkzib edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinin, birinci bəndində qeyd olunur ki, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 23.1-ci maddəsinə əsasən fiziki onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən,şəxsi həyatının sirrini vəşəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasınıəb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymışşəxs onların həqiqətə uyğun uğunu sübuta yetirməsin.

Həmin Məcəllənin 23.2-ci maddəsinəəsasən əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi həyatının sirrinə qəsd edən əlumatlar kütləvi informasiya vasitələrində yayılmışdırsa,həmin kütləvi informasiya asitələrində də təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.

Həmin Məcəllənin 23.3-cü maddəsinə görə kütləvi informasiya vasitələrində hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş fiziki şəxsin həmin kütləvi informasiya vasitələrindəöz 5 cavabının dərc edilməsi hüququ vardır.

Həmin Məcəllənin 23.4-cü maddəsinəəsasən şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsində qeyd olunduğu kimi, dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet informasiya ehtiyatı, kinoxronika proqramları və digər yayım formaları kütləvi informasiya vasitələri hesab olunur.

Həmin Qanunun 10-cu maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri, habelə yayılması qadağan edilən digər informasiyanı yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla çevirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədaləti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

Həmin Qanunun 44-cü maddəsinəəsasən kütləvi informasiya vasitəsində fiziki və hüquqi şəxslərin şərəf və ləyaqətini ləkələyən,böhtan və təhqir xarakterli məlumatlar verildikdə, fikirlər təhrif olunduqda fiziki şəxsin özünün və ya nümayəndəsinin, hüquqi şəxsin rəhbərlərinin, yaxud səlahiyyətli nümayəndəsinin həmin kütləvi informasiya vasitəsində bir ay müddətində cavab vermək, həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını, düzəliş verilməsini, habelə üzr istənilməsini tələb etmək, yaxud birbaşa məhkəməyə müraciət etmək hüququ vardır.

Həmin Qanunun 45-ci maddəsinə əsasən, təkzibdə hansı məlumatın həqiqətə uyğun olmadığı, həmin kütləvi informasiya vasitəsində nə vaxt və necə dərc olunduğu göstərilir. Dövri mətbu nəşrdə təkzib bir qayda olaraq məlumatın və ya materialın verildiyi səhifədə həmin şriftlə yığılır və "Təkzib" başlığı aktında dərc olunur. Gündəlik və həftəlik yayılan mətbu nəşrlər təkzib, cavab və ya düzəliş haqqında tələbin daxil olduğu gündən sonrakı nömrədə, digər dövri nəşrlər isə hazırlanan və ya yaxın günlər üçün planlaşdırılan buraxılışda təkzibi, cavabı və ya düzəlişi dərc etməlidirlər.

Odur ki, yuxarıda qeyd olunanlara əsasən Sizdən baş redaktoru olduğunuz hurriyyet.org saytında 16 aprel 2020-ci il tarixində “Britaniyada “bizi deyirlər”: Qızlarla kef çəkmək üçün özəl təyyarə ilə Fransaya uçan oliqarxlar kimlərdir?” adlı məqalədə Əlizadə Anar Nüsrət oğlu barəsində qeyd olunmuş məlumatlar həqiqətə uyğun olmadığı üçün onu təkzib edəsiniz. Əks halda bununla bağlı iddia ərizəsi ilə məhkəməyə müraciət olunaraq məlumatın məhkəmə qaydasında təkzib edilməsi və vurulmuş ərərin əvəzinin ödənilməsi tələb olunacaq.

**Hörmətlə,**

**Kamandar Nəsibov**